*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 396-405*

https://doi.org/10.62837/2026.7.396

**Bilal ALARLI (HÜSEYNOV),**
**ADPU Cəlilabad filialı**
***filologiya üzrə fəlsəfə doktoru,***

# SƏMƏD VURĞUN YARADICILIĞINDA MUĞAN MÖVZUSUNUN TARİXİ-MİFOLOJİ QAYNAQLARI

**Özət**

Məqalədə Səməd Vurğun yaradıcılığında Muğan mövzusundan söhbət açılır. Muğan mövzusunun tarixi-mifoloji qaynaqları ətraflı şəkildə araşdırılır. Muğan sözünün etimoloji təhlili verilir. Tanrıçılıq, atəşpərəstlik və zərdüştilik dinləri müqayisəli şəkildə təhlil olunur.

***Açar sözlər:*** *Səməd Vurğun yaradıcılığında Muğan mövzusu, "Muğan" poeması, Muğan mövzusunun tarixi-mifoloji qaynaqları.*

***Key words:*** *The Mughan subject in Samed Vurgun"s creativity, the poem of "Mughan", the historic-mythological sources of the Mughan subject.*

***Ключевые слова:*** *Темы Мугань в творчестве Самеда Вургуна, поэма «Мугань», историческо-мифологические источники темы Мугань.*

Səməd Vurğunun yaradıcılığında Muğan mövzusunun xüsusi yeri var. Böyük sənətkar Muğanla bağlı ayrıca poema və məqalə yazmış, pyeslərində və müxtəlif şeirlərində Muğana aid maraqlı poetik fikirlər söyləmişdir. "Aygün" poemasında isə qəhrəmanlarını Muğana gətirib çıxaran şair buradakı quruculuq-abadlıq işlərindən söhbət açır. S.Vurğunun Muğan mövzusuna müraciət etməsi sovet dönəmində bu qədim və məhsuldar torpağa marağın artması, təsərrüfat işlərinin dirçəldilməsi ilə bağlıdır. Lakin sənətkar quruculuq işlərini tərənnüm etməklə kifayətlənmir, Muğanın tarixinə diqqət çəkir, hətta bu diyarla bağlı əfsanə və rəvayətləri poetikləşdirir, bununla da həmin folklor nümunələrinin ilk toplayıcısı kimi folklorşünaslığımıza əvəzsiz töhfələr verir.

Muğan düzünə yolu düşən, çölləri piyada gəzən şair "sədəfli sazında" vətəni tərənnüm etmək sevdasıyla tarixlərə baş vurur, qəhrəmanlıq salnaməmizi xatırladır:

*Ah! Yazıq babalar, dözüb min dərdə,*
*Vaxtsız öldünüzsə, durur adınız.*
*Əsrlər boyunca bu boz çöllərdə*
*Bir vətən eşqilə siz yaşadınız!*

*Bir vətən eşqilə Mildə, Muğanda*
*Min bir oba qurub, qışlaq saldınız;*
*Günəşlər yurdunu zülmət boğanda*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 396-405*

*At sürüb, ox atıb, qılınc çaldınız!*

*Bir vətən eşqilə ərlər-ərənlər*
*Muğan çöllərində çadırlar qurdu.*
*Torpaqlı damlarda ömür sürənlər*
*Xosrov ordusunun döşündən vurdu.*

*O cəllad at çapdı bir vaxt Muğanda,*
*Talamaq istədi ana yurdumu.*
*O həris gözləri oynadı qanda,*
*Qan boğa bilmədi zəfər ordumu...*

*Tomris o cəlladdan qisas alaraq,*
*– Hökmdar! Tacından daha keç! – dedi.*
*Başını bir tuluq qana salaraq,*
*– Diriykən doymadın, indi iç! – dedi.*
*Tarix inciməsin, qayıdaq yenə*
*Muğan səhrasının axşam seyrinə **(14, 179).***

Torpaq damlar, susuz səhralar Muğanın sonrakı taleyidir. Əslində, bu bölgədə iri yaşayış məntəqələri olmuş, həmin yaşayış məskənləri iqtisadi və mədəni yüksəlişi ilə digər bölgələrdən fərqlənmişdir. İstilalar və hərbi yürüşlər zamanı Muğanın Şəhriyar, Biləsuvar, Ağdam, Həməşəra, Bəcirəvan, Bərzənd, Mahmudabad, Avaraq, Bəlhəb kimi abad şəhərləri yerlə yeksan edilmişdir. *Muğan* toponimini araşdıran tədqiqatçılar onu atəşpərəstlik dini ilə bağlayırlar. Muq-maq komponenti isə oda sitayiş edən kahinlərə verilən ad kimi xarakterizə olunur (***9, 91-92***). *Muğan* toponiminin sözaçımını verən Əsgər Zahidov yazır ki, mağ Azərbaycanda yaşayan muğ tayfasından olan atəşpərəst kahinlərə deyirmişlər. Vaxtilə Sasani imperiyası Muqistan adlanmışdır. Bu isə *atəşpərəstlər ölkəsi* anlamına gəlir. Ə.Zahidov *Muğan* sözünün mənasını da bu anlama uyğunlaşdırır, onu "Müdriklər yurdu", "Atəşpərəstlər" adlandırırlar. Burada atəşgah kahinlərinə inam güclü olmuş, əhali oda sitayiş adətlərinə ciddi şəkildə əməl etmişdir. Hətta atəşpərəst Zərdüştün əslən muğanlı olması haqqında rəvayət də mövcuddur (***16, 32***). Ə. Zahidov yazır ki, çox qədim zamandan Muğan ərazisində muğlar yaşamışlar. Elə ona görə də ərazi Muğan adlandırılmışdır: *"Muğlar hun tayfalarından biri olmuşdur. XI əsrdə Gəncə ilə qonşu Muğan dövləti olmuşdur. Dövlət məğlub ediləndən sonra muğlar Azərbaycanın şimal-qərb bölgələrinə və Borçalı ərazisinə köçmüş, özlərinə kəndlər yaratmışlar. İndi də Azərbaycanda yaşayan saxur, avar və digər etnoslar azərbaycanlıları "moğollar" adlandırırlar. Muğlar Azərbaycanın soykökündə dayanan tayfa olmuşdur. Muğlar Orta Asiya, Qazaxıstan, Sibir, Uzaq Şərq, Mancuriya və Çin*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 396-405*

*ərazisində hun-türk tayfaları ilə birlikdə fəaliyyətdə olmuşlar. Hətta Muğan adlı xanın dövləti idarə etməsinə aid məlumatlar bizə gəlib çatmışdır”* (***16, 71***). Daha sonra Ə.Zahidov Herodota istinad edərək bildirir ki, muğlar təriqət, silk deyil, Midiyanın bir qəbiləsi olmuşdur (***16, 32***).

*Üstünü toz-torpaq almış*
*Bu pas tutmuş qılınca bax!*
*Neçə min il bundan qabaq*
*At belində qılınc çalmış*
*Sənin şanlı babaların*
*Bu torpaqda şəhər salmış.*
*Bu gördüyün qalaq-qalaq*
*Sümüklərə baxdıqca mən*
*Ürəyimdən varaq-varaq*
*Nə dastanlar keçir, bilsən!* ***(14, 204)***

Azərbaycanın cənub-şərq bölgəsində yerləşən Muğan yaddaşlarda iz buraxmış tarixlərin şahididir. Bölgəyə daxil olan ərazilərdə arxeoloji tədqiqatlar zamanı yerli qəbilə və tayfaların, yaşayış məskənlərinin, qala və bürclərin izləri aşkar olunmuşdur. Kür-Araz çayları vadisinin cənub hissəsində – Muğanda yaşayan əkinçi-maldar tayfaları öz mədəniyyətlərini yaratmış və onlara məxsus kurqanlar, qəbir abidələri, müxtəlif məişət əşyaları, soyuq silahlar, sikkə və qiymətli bəzək əşyaları zəmanəmizə qədər gəlib çatmışdır. Muğan Azərbaycanın Daş, Tunc, həm də Dəmir dövrünü özündə əks etdirən bir bölgəsidir (***10, 16***).

Tarixin sonrakı mərhələlərində Azərbaycanın barlı-bəhrəli torpağı olan Muğan yadellilərin hücumlarına məruz qalmış, “ellər Pompeyin ordusuna sinə gərmiş”, “Amazonka dediyimiz qəhrəman qadın nəsli” döşünə qalxan çəkib, qılınc tutmuşdur. Babaların taleyi tək yerin dibi qaranlıqdır:

*Ekskavator təpələri lay-lay açıb, lay-lay qazır,*
*Qoca alim saxsı yığıb yer altında tarix yazır* ***(14, 205-206).***

Muğan kurqanları hələ tam araşdırılmamışdır. Hər kurqanın altında bir tarix yatır. S.Vurğun arxeoloji əhəmiyyətli kurqanların Azərbaycan tarixinə verə biləcəyi töhfələri zamanında görə bilirdi və buna görə də Muğanın yeni dövranını tərənnüm edən poemasında çağdaş qəhrəmanları tarixi şəxsiyyətlərə tay tutur, əmək cəbhəsindəki çağdaş qəhrəmanlıqları yadelli işğalçılara qarşı mübarizə aparmış tarixi qəhrəmanlarla müqayisə edirdi. O, Boz qayanı, Bozdağı diz çökdürən Sarvanı Bisütunu yaran Fərhadla eyniləşdirir. Fərhad böyük bir dağ zirvəsini yarıb ayırır, Sarvan isə ayrı düşmüş iki dağı bir-birinə qovuşdurur:

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 396-405*

*O da Fərhad kimi dağ uçurur, bax,*
*Fərhad əfsanədir, xəyaldır ancaq (**14, 200**).*

Oxşar təntənəni "Aygün" poemasında Muğanda quruculuq işlərinə başlayan Əmirxanla Aygünün simasında da görürük. Qəhrəmanı Muğanın qaynar həyatı öz ağuşuna alır:

*Qürbət kimi görünsə də Aygünə Muğan,*
*El içində yaşayardı el adətilə...*
*Şövqə gəlib insanların xoş rəftarından*
*Uşaq kimi sevinərdi səadətilə (**14, 246**).*

Adət, əfsanə, rəvayət, nağıl, dastan kimi folklor terminlərinə S.Vurğun poeziyasında tez-tez rast gəlmək mümkündür. Şair tarixi adətləri çağdaş həyat tərzi ilə üz-üzə qoyur:

*Ömürlük yol yoldaşıdır, doğrudan da, bizə adət,*
*Vərdişlərin övladıdır ömür adlı səadət (**14, 201**).*

Təkcə "Muğan" poemasında bir neçə maraqlı və ibrətamiz folklor nümunəsi poetikləşdirilmişdir. Kürlə bağlı "dastan", "Topçu meşəsi", "Muğan qızı", "Qız bulağı" kimi əfsanə və rəvayətlər poemanı tarixi keçmişimizlə sıx bağlayır, maraqlı və oxunaqlı edir. Şairin rastlaşdığı çobanın "Muğan Muğan olsa, biri üç eylər, Muğan tufan olsa, üçü heç eylər" (**14, 181**) məsəli isə həm bir folklor nümunəsi kimi maraq doğurur, həm də Muğanın təbii və siyasi ab-havasından soraq verir. Dəyişkən iqlimə malik isti Muğan çölləri bol yağış görəndə biri üç edir, üçünü heç edən səbəb isə çoxdur. Bu təkcə əlverişsiz hava şəraiti ilə bağlı deyil, həm də barlı-bəhərli Muğan ellərinə göz dikən yadelli işğalçıların dağıdıcı (üçü heç eləyən) müharibələri ilə bağlıdır.

"Muğan" poemasında tarixi-mifoloji qaynaqlar daha çox inanclarla bağlıdır. Poemanın beşinci və altıncı nəğmələri Muğanda İslamaqədərki inanclar sistemi olan zərdüştiliklə bağlı məsələlər üzərində qurulub. Poemanın yazıldığı dövrdə atəşpərəstlik və zərdüştilik dini təsəvvürləri lazımınca araşdırılmadığından müəllif mövcud elmi fikirlərə söykənir, Zərdüştü, onun dini təlimini Azərbaycanın qədim dini təsəvvürü kimi qəbul edir. Şair Zərdüştü Loğman adlandırır:

*Qoca Zərdüşt! Qoca Zərdüşt! Üç min il qabaq*
*Sən də Muğan səhrasında gəzib dolaşdın!*
*Min ölümlə, fəlakətlə qarşılaşaraq,*

*Araz kimi gah durulub, gah da bulandın!*
*Ötərgi də olsa, bu gün söhbət açım mən*
*Torpaq olmuş o Loğmanın əməllərindən **(14, 183).***

Muğanın sinəsi varaq-varaq açıldıqca “Min bir gecə dastanı”ndan şirin oxunur. Şirin oxunan dastanın qısa məzmunu belədir:

*Üç min bahar keçəcəkdir bu əfsanədən,*
*Qara geyib matəm tutan xain Əhrimən*
*Təslim olub baş əyəcək ulu Hörmüzə.*
*Öz taxtını tapşıracaq gecə gündüzə,*
*Qadir günəş əridəcək o vaxt zülməti*
*Yer oğlunu boğmayacaq yerin möhnəti.*
*Göy üzündən çəkiləcək soyuq və azar,*
*Səhralarda çiçək açıb gülən arzular*
*Dodaqlarda şərqi kimi səslənəcəkdir **(14, 184).***

Cəlal Abdullayev böyük şairin xalq yaradıcılığından istifadə formalarını bir neçə qrupa bölür. S.Vurğun folklor nümunələrindən əsasən olduğu şəkildə istifadə etməklə, həmin nümunələrdən bəhrələnməklə və qələmə aldığı əsərin süjetini zənginləşdirmək məqsədilə müxtəlif əfsanələr yaratmaqla öz yaradıcılığını daha maraqlı etmişdir (***1, 7-12***). Eyni məsələyə “Səməd Vurğun” adlı monoqrafiyasında geniş yer ayıran Bəxtiyar Vahabzadə şairin əfsanə, rəvayət və nağıllara özünə lazım olan şəkildə müraciət etdiyini və xalq yaradıcılığına günün tələbləri səviyyəsində yanaşdığını yazır (***12, 133***). S.Vurğun özü də ədəbiyyatçıların tarixi keçmişimizlə bağlı məsələlərə məqsədyönlü müraciətinə manasibət bildirmiş, yazıçıların 1945-ci il plenumunda etdiyi “Azərbaycan ədəbiyyatının gələcək vəzifələri” adlı məruzəsində xalq əfsanələri və nağıllarından istifadə etməklə dövrümüzün qabaqcıl ruhu ilə səsləşən əsərlər yaratmağı qarşıya mühüm bir vəzifə kimi qoyur: *“Xalq əfsanələrinə soyuq bir nəzərlə baxan yazıçılar unudurlar ki, bütün əfsanələr xalq dühasının məhsuludur. Hər əfsanədə xalqın real həyatı, şüur və zövqlərionun gələcəyə olan inam və arzuları əks olunmuşdur ki, onların bir çoxu indi də arzu olaraq, həm də yüksəliş arzusu olaraq qalır”* (***13., 70***). Tomris əfsanəsi, Zərdüşt əfsanəsi, Şeyx Sənan əfsanəsi, Prometey əfsanəsi və digər folklor nümunələrinə müraciət etməsi S.Vurğunun şifahi xalq ədəbiyyatına böyük önəm verdiyini göstərir. Onun “Bulaq əfsanəsi”, “Aslan qayası”, “Qız qayası”, “Ölən məhəbbət”, “Ayın əfsanəsi” və digər əsərləri bilavasitə folklordan qaynaqlanır. Şair “Avesta” əfsanələrindən götürülmüş “Hörmüz və Əhrimən” dramını İkinci Dünya müharibəsi illərində yazmış, o zaman dəbdə olan Xeyirlə Şərin əbədi mübarizəsini daha da qabartmışdır. Əsərdə düşmən cəbhəsini təmsil edən qara qüvvələr tünd boyalarla verilir (***1, 15***). Şər qüvvəni təmsil

edən qorxunc Əhrimənin sərkərdəsi Zülmət, Hörmüzün sərkərdəsi isə Dağ sultanıdır: *"...Zülmət bütün kainatı qan dəryasında boğmaq, hər tərəfi qaranlığa qərq etmək, haqq deyən səsi batırmaq, insanlıq, ədalət, səxavət, həyat, xoşbəxtlik sözlərini lüğətlərdən silmək istəyir. Zülmətin başlıca düşməni azad fikirli insandır. Dağ sultanı isə qara qüvvələrin kökünü birdəfəlik kəsmək, bütün insanlar üçün xoşbəxt həyat, azad dövran uğrunda çarpışır"* (***1, 15***). S.Vurğun haqlı olaraq etiraf edir ki, "Yer altında batıb getmiş o dövrün dastanları" (***14, 205***). Muğan mədəniyyəti, eyni zamanda burada islamaqədərki dini baxışlar sistemi kompleks şəkildə araşdırılmağa möhtacdır. İnanclar sistemində tarixi mərhələlik prinsipi gözlənilməli və bu sistem aşağıdakı şəkildə qruplaşdırılmalıdır:

I. İslamaqədərki inanclar. Buraya daxildir: a) Tanrıçılıq; b) Dan yerinə – dünyanı işıqlandıran tanrı məkanına tapınanlar; c) Günəşə tanrının nuru kimi inananlar; ç) Odu tanrının nuru sayan atəşpərəstlər; d) Atəşpərəstlik ideyalarının yazıya alındığı "Avesta"ya müqəddəs toplu kimi baxan zərdüştilər və zərdüştilik.

II. İslam dini.

Muğan zərdüştiliyin, eyni zamanda zərdüştilikdən də qədim olan Muğan dininin mərkəzi olmuşdur. Muğan dini və mehrpərəstlik (yaxud mifodizm) dinlərinin əsasında formalaşan Muğan dininin tarixi zərdüştilikdən qədimdir. Əslində, zərdüştilik Muğan dini ehkamları üzərində qurulub (***5***). Muğan dini dedikdə, atəşpərəstliyə qədər Azərbaycan ərazisində mövcud olmuş dini-fəlsəfi və mifoloji təfəkkür sistemi başa düşülür. Yazılı şəkildə bizə gəlib çatmayan bu dini-fəlsəfi sistemi araşdırmaq və dəqiqləşdirmək üçün şifahi xalq ədəbiyyatı örnəkləri, adət-ənənələr, epiqrafik abidələr və arxeoloji nümunələr ətraflı şəkildə öyrənilməlidir. Tarixi varislik prinsiplərinin gözlənilməsi vacibdir. "Avesta"danöncəki inancların diqqətdən kənarda qalması bəzi tarixi hadisələrdən yanlış nəticələr çıxarılmasına səbəb olmuşdur. Mahmud İsmayılov "Sənin ulu baban" adlı kitabında Tomrisin özünü öldürmüş oğlu Əmrahın dəfn mərasimini təsvir edir. Dəfndə iştirak edən kahin deyir ki, insan öləndən sonra onun qoynundakı müqəddəs torpaq murdar olur. Bu murdarlığı aradan qaldırmaq üçün qəbirdə dəfndən əvvəl tonqal qalayırlar: *"Dörd nəfər cüssəli kişi qəbrin bütün divarları boyu, üzərində torpağın münbitliyinin rəmzi olan həyat ağacı, müxtəlif həndəsi fiqurlar, ceyran və at fiqurları həkk olunmuş iri sal daşları düzüb sənduqə düzəltdilər, sonra isə külün üstünə bir neçə qat qamış düzdülər və kahinə baxdılar. Kahinin işarəsi ilə dörd nəfər cənazəni qəbrə endirdi. Qəbrə çoxlu bəzək şeyləri, qab-qacaq, silah qoyduqdan sonra üstünə sal daş örtdülər. Kahinin duasından sonra qəbrin üstünü torpaqlamağa başladılar. Tezliklə qəbrin üstündə iri bir təpə əmələ gəldi... Mərhumun üçündə kahin dua oxudu və dedi: Biz yerlilərlə qaynayıb-qarışandan sonra "Avesta" da bizim müqəddəs kitabımız olubdur"* (***7, 129-130***). Bu kiçik mətn böyük bir həqiqətin üstünü açır. Görəsən, kahin "Avesta"danqabaqkı hansı dini inancları nəzərdə tutur? Zərdüştilik dininin

əsasları “Avesta”ya söykənir. Demək, kahinin dediyi din zərdüştilik deyil, ona qədər olan dindir.

S.Vurğun “Zərdüştün xülyaları” şeirində “Muğan” poemasında qaldırdığı fikirlərə qüvvət verərək yazır:

*Nəbilər, dahilər, ərlər, ərənlər*
*Həyat meydanında çapmış atını.*
*“İşıqlı bir günə yol göstərənlər”*
*Tapdamış bəşərin xatiratını (**15, 222**).*

Bu misralar tarixi həqiqəti ifadə edir. Dan yerinə, Dan tanrısına inam tarixin sonrakı mərhələlərində, daha doğrusu, Sasanilərin hakimiyyəti dövründə funksional dəyişikliyə uğramışdır. Bəxtiyar Tuncay yazır ki, qədim türklər sitayiş etdikləri tək Tanrıya “Tenqri Menqu” da deyirdilər. “Menqu” qədim türk dilində *əbədi* deməkdir. Odur ki, bu halda söhbət əbədi olan Tanrıdan gedir (***11, 181***). Türklərə dərin nifrət bəsləyən atəşpərəst Sasanilər Tenqra Menqunu Əhrimən (Anqra Manyu) adı altında şər qüvvələrin təmsilçisi (iblis) elan etmiş, Əhəmənilər dövründən sitayiş etdikləri Hörmüzü (Ahura Məzdanı) xeyirin, işığın rəmzi kimi qələmə vermişlər. Parslara görə, türklər şərin və qaranlığın, arilər isə xeyirin və işığın əsgərləri kimi qələmə verilir (***11, 181***). Bu cür münasibət İran – Turan qarşıdurmaları zamanı formalaşan ideologiyanın tərkib hissəsidir. Muğan bölgəsində hakimiyyət sülalələrinin uzun müddət zərdüştilik dininin dinasitiyasında olması nəticəsində türklər öz ilkin tapınmalarından uzaq düşmüşlər. “Tanrı” adının özü də *Danla, Dan yeri ilə* bağlıdır. Maniçilik mifologiyasına diqqət çəkən Bəxtiyar Tuncay haqlı olaraq yazır ki, burada Əhrimənin yerini Şimnu, Hörmüzün yerini işıq tanrısı, yəni türk Tenqrisi tutur: “O, Tanq Tenqri, yəni dan tanrısı adlanır” (***11, 182***). Maraqlıdır ki, Dan yerinə, Dan Tanrısına inam bu gün də Muğanda yaşamaqdadır. Dan Tanrısının şərəfinə magik mərasim də keçirilir (***3, 401-402***). Muğanlılar sübh tezdən, hava işıqlanmamış hündür bir təpənin üzərinə qalxır, burada Aldədənin, Günəş Tanrısının şərəfinə tonqal qalayır, ovuclarını açaraq əl-ələ verir, allı (yallı) gedirlər. “Al” Günəşin adlarından biridir, *od, qırmızı, hündür, yüksək, uca, hiylə* (qırmızı sözünün qızarmaq formasından – allanmaqdan yaranmış forması) kimi çoxmənalı anlama gəlir. Dədə Qorqud dastanlarında alan *dan yeri, alar dan yeri* inanc ifadə edən söz birləşmələrinə rast gəlinir ki, bu da alan və alar tayfalarının adlarında oxşar mənalarda indiyədək yaşamaqdadır (***2, 77***). Cəlal Bəydili Tanrıçılığın türk mifologiyası zəminində təşəkkül tapdığını, türk mifoloji düşüncəsinin əsasında dayanan inanc sistemi olduğunu yazır: *“Qədim və müasir türk xalq inanclarının özülünü təşkil edən, daha dərin kökləri kosmoqonik miflərdə əksini tapan bu inanc sisteminin başlıca özəlliyi kainatın bir bütöv olaraq qavranılmasıdır. Burada ən ulu varlıq olan Tanrı müqəddəs bilinir və bütün hallarda göylə bağlanılır”* (***4, 23***).

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2026*
*Səh. 396-405*

Tanrıçılıq ideyalarının atəşpərəstliyə, daha sonralar zərdüştiliyə "qurban verilməsi" Muğan mədəniyyət abidələrində özünü bariz şəkildə göstərir. Muğanın iri şəhərlərindən olmuş Həməşəranın qalıqları yerli-yataqlı şəkildə araşdırılmasa da, Cəlilabad rayonunun mərkəzində yerləşən, vaxtilə eyni adlı yaşayış məntəqəsinin simvolu sayılan kurqan öz sirrini altındakı maddi mədəniyyət nümunələri ilə birlikdə qoruyub saxlayır. Burada iki təpə mövcuddur: hündür, elit təpə, yastançavarı rəiyyət təpə. Kurqanın parametrləri el arasında indi də belə adlanır. Kurqanın ətəyindəki qəbirlərdə dəfn olunan meyitlərin üzü qiblə istiqamətinə deyil, günçıxan tərəfədir. Bu cür dəfn adəti Dan yerinə inanclarla bağlı olmuşdur.

Tarixçi Ə.Mirzəzadə belə hesab edir ki, Həməşəra təpəsi, tarixi tədqiqatlara görə, zərdüştiliklə bağlı təpədir. Burada yaşayan əhali vaxtilə bu dinə inanmış Həməşəra məbədini isə inam yeri seçmişlər. Həməşəra təpəsi zərdüştilərin ibadət mərkəzlərindən biri olub. Burada atəşpərəstliyə aid tapılan maddi-mədəniyyət nümunələri, həməşəra üzüm sortunun və qədim nar ağaclarının qalıqları, o cümlədən möhtəşəm görünən qala-təpə bir daha bunu sübut edir (***10, 46***). R.Əsgərov "Cəlilabad: dünən və bu gün" adlı kitabında yazır: *"Həməşəra şəhərində muğların (muğanlıların) baş məbədi yerləşmişdir. Onlar burada "haoma" şirəsi çəkərmişlər. Haoma – şirə nar və bu gün həməşəra adı ilə tanıdığımız üzüm sortundan hazırlanarmış. "Həməşara" adı da "haoma-şirə" adının təhrif olunmuş formasıdır"* (***6, 7***). Maraqlı olan budur ki, həmin kurqandan atəşpərəstliyə aid xeyli maddi-mədəniyyət nümunələri tapılmışdır və Həməşəra yaşayış məntəqəsinin həndəvərində həməşəra üzüm sortu becərilir, burada Nar bağı deyilən sahə indi də durur (***6, 6***). Nar və üzüm şirəsindən alınan tünd qırmızı içki Günəş rəmzi sayıldığından müqəddəs hesab edilirdi.

Günəş və Dan yeri ilə bağlı inamları Yardımlı rayonunun Alar kəndindəki Qız qalasında da müşahidə etmək mümkündür. Qız qalasının bacalarından düşən Günəş şüası günün müəyyən vədələrində müxtəlif bürclərlə bağlı qaya rəsmlərini "canlandırır". Qalanın üst tərəfindəki başı uçub dağılmış nəhəng heykəlin isə üzü Dan yerinə baxır. Kənd sakini Məlik Bəxtiyar oğlu Əliyevin sosial şəbəkədə yayımladığı şəkildə qayalarda yonulmuş belə heykəllərdən biri təsvir olunmuşdur. Şəkildə insanın üstündə durduğu qaya qaya deyil, heykəldir və ona yaxından baxanda yonulma cizgiləri aydın sezilir. Üstündən min illər keçsə də, izlər itməmişdir. Təəssüf ki, bu heykəl kimi, digər heykəllərin də başı sınmışdır. Şəkildə heykəlin başının yerində insan durmuşdur. Heykəlin qurulduğu yeri, mövqeyi diqqətlə izlədikdə, belə nəticəyə gəlmək olur ki, o, Şərqə, məhz Günəşin çıxdığı nöqtəyə baxırmış (***8***).

Muğan mədəniyyəti abidələrinə daxil olan Əliköməktəpə yaşayış məskənində arxeoloji qazıntı işləri aparılarkən maraqlı etnoqrafik məlumatlar aşkarlanmışdır. Bu məlumatlar dəfn adətləri ilə bağlıdır. Belə ki, burada ölülər basdırılarkən onların üzərinə oxraya bənzər boya səpiılir. Beş-altı min il bundan əvvələ aid edilən eqneolit

təbəqələrində ölülərin boyanmış vəziyyətdə dəfni qədim adət və ayinlərin icrası nümunəsidir. Qırmızı boyanı qan və Günəş rəmzi sayan qədim muğanlılar ölünü cana gətirmək, işıqlı dünyaya qaytarmaq arzularını bu şəkildə ifadə edirmişlər (***10, 36***). Muğan maddi-mədəniyyət abidələrinin kataloqunu yaradan tarixçi Ələsgər Mirzəzadə qeneolit dövründə Muğan ərazisində vahid əkinçilik və maldarlıq mədəniyyətinin olduğunu və bu mədəniyyət zəminində vahid adət-ənənənin, ideologiyanın formalaşdığını yazır: *"O dövrü əks etdirən Əliköməktəpə və Cəfərxanlı yaşayış məskənlərində qəbir abidələrinin açılması ölülərin harada və necə dəfn edilməsi, hansı dini dünyagörüşə malik olmasını maddi sübutlarla əks etdirir. Tədqiqat sübut edir ki, dəfn zamanı qəbirlər evlərin arasında, döşəmənin altında, yaxud da həyatdə yerləşdirilmişdir... Buradan çıxan skeletlər tək və bükülü vəziyyətdə aşkarlanmışdır"* (***10, 35***).

Kür-Araz çaylarının cənub vadisində yerləşən Muğanda yaşayan yerli tayfaların tarix üçün yadigar qoyub getdiyi mədəniyyət abidələrinin yaşı on min ilə yaxındır. Müxtəlif ictimai-siyasi, dini-fəlsəfi və etnoqrafik mərhələləri özündə birləşdirən bu minilliklərin zəngin folklor dünyası tam araşdırılmamışdır. Muğanın əkinçi-maldar tayfalarının həyat tərzi, mədəniyyəti bu yerlərə məxsus kurqanlarda, epiqrafik abidələrdə, müxtəlif məişət əşyalarında öz izini qızıl hərflərlə yazmışdır. Muğanı qarış-qarış gəzən böyük Azərbaycan şairi Səməd Vurğun məhz bu möhtəşəm mədəniyyətə və ideologiyaya üz tutmuş, öz qüdrətli qələmi ilə tarixin qaranlıq səhifələrinə işıq salmışdır.

## ƏDƏBİYYAT

1. Abdullayev C. Səməd Vurğun poetikası. Bakı, Gənclik, 1976, 160 s.
2. Alarlı (Hüseynov) B. "Kitabi Dədə Qorqud" dastanları və Muğan // Milli Zəka, 2015, № 3-4, s.71-79
3. Azərbaycan folkloru antologiyası. XVII kitab: Muğan folkloru (Alarların arasından toplanmış folklor nümunələri). Toplayanı B. Hüseynov. Bakı: Nurlan, 2008, 448 s.
4. Bəydili (Məmmədov) C. İstiqbal xalq ədəbiyyatınındır. Seçmə yazılar. Bakı: Elm və təhsil, 2015, 312 s.
5. Əmənov E. Muğan şəhəri və Muğan dini // Münasibət, 2012, 25 avqust
6. Əsgərov R. Cəlilabad: dünən və bu gün. Bakı: Çaşıoğlu, 2000, 130 s.
7. İsmayılov M. Sənin ulu baban. Bakı, 1989, 302 s.
8. Melik Bextiyaroglu –https://web.facebook/com/melik.bextiyaroglu?fref=nf //29 iyun 2016-cı il (Girildiyi tarix: 03.07.2016)
9. Мирзазаде Ч.Х. Топонимы Азербайджана в средневековых арабских географических источниках. Баку: Элм, 1988, 120 с.
10. Mirzəzadə Ə. Muğan maddi mədəniyyət abidələri. Cəlilabad bölgəsi. Bakı: Nərgiz, 2016, 160 s.+ 16 s. İllüstrasiya.

11. Tuncay B. Azərbaycan türklərinin islamaqədərki dili və ədəbiyyatı. Şifahi və yazılı ədəbi nümunələr əsasında. Bakı: Elm və təhsil, 2015, 288 s.
12. Vahabzadə B. Səməd Vurğun. Bakı, Gənclik, 1984, 380 s.
13. Vurğun S. Böyük sənət uğrunda . Bakı, Gənclik, 1970, 192 s.
14. Vurğun S. "Muğan" və "Aygün" poemaları. Seçilmiş əsərləri, II cild, Bakı: Azərnəşr, 1986, 384 s.
15. Vurğun S. Zərdüştün xülyaları. Əsərləri, I cild. Bakı: Elm, 1985, 448 s.
16. Zahidov Ə. Muğan. Bakı: Ekologiya, 1999, 194 s.

**BILAL ALARLY (HUSEYNOV)**

**THE HISTORIC-MYTHOLOGICAL SOURCES OF THE MUGHAN SUBJECT IN SAMED VURGUN"S CREATIVITY**

**SUMMARY**

In the article is talked about the Mughan subject in Samed Vurgun"s creativity. The historic-mythological sources of the Mughan subject are widely investigated. The etymological analysis of the word Mughan is given. Religions of Tanrichilig, fire-worship and Zoroastrianism are analysed in the comparative form.

**БИЛАЛ АЛАРЛЫ (ГУСЕЙНОВ)**

**ИСТОРИЧЕСКО-МИФОЛОГИЧЕСКИЕ ИСТОЧНИКИ ТЕМЫ МУГАНЬ В ТВОРЧЕСТВЕ САМЕДА ВУРГУНА**

**РЕЗЮМЕ**

В статье рассказывается о теме Мугань в творчестве Самеда Вургуна. Подробно исследуется историческо-мифологические источники темы Мугань. Дается этимологический анализ слова «Мугань». В сравнительной форме анализируются религи тенгрииства, огнепоклонничество и Зороастризм.

**Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Akif Əhmədov**